**Rəhilə HƏSƏNOVA**
Azərbaycan Milli Elmlər Akademiyasının
İnformasiya Texnologiyaları İnstitutu
*e-mail: rahasanova@gmail.com*

**Firudin ƏSGƏROV**
Azərbaycan Milli Elmlər Akademiyasının
İnformasiya Texnologiyaları İnstitutu
*e-mail: firudinasgarov@gmail.com*

# MİLLİ ANTİPLAGİAT XİDMƏTİ: NƏTİCƏLƏRİN TƏQDİM EDİLMƏSİ

***Xülasə.*** *Məqalədə plagiatlıq, piratçılıq, müəllif hüquqlarının pozulması və s. kimi terminlərin izahları verilir. Plagiatlığın növləri sadalanır, həmçinin plagiatlıqla mübarizə üsullarından biri olan antiplagiat sistemlərinin iş prinsiplərinə nəzər salınır. AMEA İnformasiya Texnologiyaları İnstitutu timsalında milli antiplagiat xidmətinin hansı mərhələlərdən ibarət olması, nəticələrin hansı şəkildə təqdim edilməsi təsvir edilir.*

***Açar sözlər:*** *plagiatlıq, piratçılıq, antiplagiat sistemləri, müəllif hüququnun pozulması, "Turnitin", "Plagiarism", "Research Resources".*

Müəllifin başqa müəllifə məxsus ideya və fikirləri öz adından təqdim etməsi plagiatlıq (eng. *plagiarism*) adlanır. Bu hadisə oğurluq və piratçılıq faktorları ilə sıx əlaqəlidir. Plagiatlığın əsas əlaməti müəllifliyin mənimsənilməsidir, belə ki, müəlliflik hüququ ilə qoru-nan əsərin istifadə olunması, nəşr edilməsi, surətinin çıxarıl-ması və s. plagiat deyil, müəlliflik hüququnun pozulmasının başqa təza-hür forması – piratçılıqdır. Piratçılıq intellektual işin qanunsuz isti-fadə edilməsi və müəllifliyin mənimsənilməsi ilə plagiatlığa çevrilir [1].

Plagiatlıq həmçinin kompüter virusları, spamlar, fişinq və s. kimi kibercinayətkarlığın bir növü hesab olunur. Plagiatlıq adətən internetdən, kitabdan, jurnaldan və s. birbaşa mətnin üzünün köçürülməsi ilə və yaxud az sayda dəyişiklik etməklə həyata keçirilir [2].

Plagiatlıq müəlliflik hüququnun və patent qanununun pozulması kimi qiymətləndirilə bilər. Belə ki, müəllif hüquqi, mülki, hətta bəzi hallarda cinayət məsuliyyətinə də cəlb oluna bilər. Ümumiyyətlə, plagiatlıq elmi etikanın kobud şəkildə pozulması hesab olunur.

Hazırda işlədilən mənada “plagiat” sözü Avropa dillərində XVII əsrdə istifadə edilməyə başlanmışdır. Lakin Qədim Roma qanunlarında “plagium” (hərfi mənada “oğurluq” mənasını verir) qamçılama (ad plagas) adlanan, azad insanın köləliyə satışı mənasını verirdi. Sonralar bu sözdən “ədəbi mülkiyyətin oğurluğu” anlayışında – “plagium litterarium” istifadə edildi, oğru isə latın sözü olan “plagiator” ilə adlanmağa başladı.

“Plagiat” sözünün mənası heç də hamıya məlum olmasa da, tədqiqatçıların 90%-i həyatlarında heç olmasa bir dəfə bununla rastlaşırlar. Hal-hazırkı mənasında işlədilən “plagiatlıq” sözü ingilis dilində ilk dəfə Şekspir və digər yazıçılar arasında gedən münaqişə zəminində meydana gəlmişdir. Tarix boyu bir çox dini mətnlərin müəllifi olmayıb və onlar asanlıqla daha sonrakı əsərlərə köçürülə bilinmişdir.

XVII əsrin ortalarından etibarən elm də daxil olmaqla bütün yaradıcı sahələrdə plagiatlıq və ideyaların oğurlanması ittihamları adi hala çevrilmişdi. İlk dəfə 1709-cu ildə Böyük Britaniyada müəlliflik hüququ haqqında qanun qəbul edilmişdir. Bu qanun müəllif hüquqlarını vicdansız naşirlərdən qoruduğu kimi, nəşriyyatların da hüquqlarını kitab piratçılığından müdafiə edirdi. Bununla da, müəllif hüquqlarının qorunması ilə bağlı işlər çox böyük sürətlə inkişaf etməyə başladı. XIX əsrin əvvəllərindən başlayaraq bir çox Avropa ölkələri kitab piratçılığına qarşı mübarizə aparmaq məqsədilə Bern konvensiyasına qoşuldular [3]. Lakin ABŞ 1891-ci ilə qədər əcnəbi müəllif və nəşriyyatların hüququnu qorumaqdan imtina edərək 1988-ci ilə qədər Bern konvensiyasını imzalamaqdan imtina etmişdir.

Ümumiyyətlə, plagiatlıq müxtəlif ekspertlər tərəfindən The Direct Copy, The Direct Copy, The Combo, The Quilt, The parrot, The Insecure, The Lost-at-Sea və The Self-Obsessed kimi növləri təsnifləşdirilir [2, 6]:

Hal-hazırda geniş istifadə olunan Turnitin, Plagiarism və Research Resources antiplagiat sistemlərinə görə plagiatlıq:

- ✓ Başqasının işinin özününkü kimi təqdim edilməsi;
- ✓ Başqasına məxsus fikir və ideyalara istinad etmədən özününkü kimi ifadə edilməsi;
- ✓ Başqasının ideyasının sitat şəklində yazılmaması;
- ✓ Sitatın mənbəsi haqqında yalnış məlumatın verilməsi;
- ✓ Sözləri dəyişərək mənbəyə istinad etmədən əsas strukturun olduğu kimi köçürülməsi;
- ✓ İstinad edilib-edilməməsindən asılı olmayaraq materialın əksər sözlərinin və ideyaların başqa mənbələrdən götürülməsi deməkdir [7-9].

Müasir dövrdə aşağıdakı iki sinif plagiatlıqdan daha çox istifadə olunur [4,5]:

- **Mətn plagiatlığı.** Bu tip plagiatlığı adətən elmi müəssisələrdə tələbələr və tədqiqatçılar həyata keçirir. Bu zaman plagiatlıq mətni eynilə orijinal məqalənin, tezisin, elmi işin mətninə oxşayır.
- **Mənbə kodu plagiatlığı.** Bu tip plagiatlıq yenə də tələbələr tərəfindən yerinə yetirilir, belə ki, onlar mənbəni qeyd etmədən oradakı bütün mətni və ya hər hansı bir hissəsini kod dəyişməklə köçürürlər. Bu tip plagiatlığı təyin etmək çətin olur.

Mətn və mənbə kodu plagiatlığını 2 üsulla aşkarlamaq mümkündür:

- **Fiziki aşkarlama.** Burada ekspert materialı özü yoxlayaraq onun plagiat olub-olmaması haqqında qərar verir. Məsələn, müəllim tələbəyə verdiyi kurs işini özü şəxsən yoxlayır və onun orijinallığını qiymətləndirir. Lakin bu üsul çoxsaylı sənədlərin yoxlanması üçün effektiv deyildir, çünki bu proses müəllimdən çox vaxt və əmək tələb edir.
- **Avtomatik aşkarlama.** Bu üsul kompüter vasitəsilə həyata keçirilir, belə ki, plagiatlığı avtomatik aşkarlayan çoxlu sayda proqram təminatları mövcuddur: “PlagAware”, “PlagScan”, “Check for Plagiarism”, “iThenticate”, “PlagiarismDetection”, “Academic Plagiarism”, “The Plagiarism Checker”, “Urkund, Docoloc”.

Antiplagiat proqramlarının tətbiqindən başqa plagiatlıqla mübarizənin hüquqi, ictimai qınaq və maarifləndirmə metodları da vardır [3].

Müasir dövrdə bir çox ölkələrdə plagiatlıqla mübarizənin qanunvericilik bazası formalaşdırılmışdır. Bu ölkələrdə plagiatlıq "dələduzluq", "oğurluq" və s. kimi cinayət əməli hesab olunur və cinayətkar plagiatlıqdan dəyən ziyanı ödəmək məcburiyyətində qalır.

Beynəlxalq təcrübə onu göstərir ki, plagiatlıqla məşğul olan insanların ictimai qınaqla cəzalandırılması işlək mexanizm hesab olunur. Bu şəxslər hüquqi məsuliyyətə cəlb edilmədən vəzifələrindən və elmi adlarından məhrum olurlar.

Plagiatlıqla mübarizə üsullarından biri də maarifləndirmədir, belə ki, bu proses plagiatlıqla mübarizə sahəsi üzrə mütəxəssis kadrların hazırlanması və bu biliklərin ali təhsil müəssisələrində tədrisini özündə ehtiva edir.

Plagiatlığı elmi əsər çap edilməmişdən əvvəl təyin etmək müəllif üçün daha təhlükəsiz hesab olunur. Belə ki, burada antiplagiat sistemlərinin tətbiqi çox önəmlidir. Hər bir müəssisədə tədqiqatçıların hər hansı jurnal və ya konfransa təqdim edəcəkləri işin əvvəlcədən yoxlanılması, antiplagiat proqramından keçirilməsi planlaşdırılmalıdır. Azərbaycan Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutunda antiplagiat xidməti 3 mərhələli proses kimi nəzərdə tutulmuşdur:

1. Sənədlərin qəbulu
2. Sənədlərin məzmununun antiplagiat proqramında yoxlanılması
3. Nəticələrin təqdim edilməsi

Sənədlərin qəbulu mərhələsində elmi işlərin (tezis, məqalə, kurs işi, diplom işi, dissertasiya və s.) elektron versiyası müəlliflər tərəfindən müvafiq bölməyə təqdim edilir. Sənədlərin məzmununun antiplagiat proqramında yoxlanılması mərhələsində mətnin və obyektlərin hissə-hissə sistemə daxil edilərək qiymətləndirilməsi nəzərdə tutulur. Sonuncu mərhələdə əldə edilmiş nəticələr bu və ya digər şəkildə müəllifə təqdim edilir.

Birinci mərhələdə sənədlərin qəbulu prosesi sxematik olaraq aşağıdakı şəkildə nəzərdə tutulur (Şəkil 1):




**Şəkil 1. Sənədlərin qəbulu prosesi**

Sənədlərin qəbulu prosesində ilk öncə, daxil edilmiş elmi işlərin təsnifatı aparılır, daxil edilmiş sənədin kitab, məqalə, dissertasiya və s. olması müəyyən edildikdən sonra sənədin obyektlərdən təmizlənməsi prosesi başlayır. Obyektlərdən təmizləmə bölməsində mətndə istinad edilmiş şəkil, cədvəl, sxem və s. müəyyənləşdirilərək yeni qovluqda toplanılır. Sonra bu obyektlərin individual olaraq antiplagiat sistemində yoxlanılması nəzərdə tutulur. Tam mətnin hissələrə bölünməsi prosesində mətnin giriş, məsələnin həlli, nəticə, fəsil 1, fəsil 2 və s. kimi hissələrə bölünməsi vacibdir. Bu, yekun nəticənin təqdim olunması zamanı plagiatlıq faktına mətnin daha çox hansı hissəsində rast gəlindiyini aşkarlamağa imkan verir. Ədəbiyyat:nın ayrılması bölməsində istinad edilmiş mənbələrin həqiqiliyi, müəllifin bu resurslardan hansı dərəcədə istifadə etdiyi müəyyənləşdirilir.

Nəticələrin müəllifə təqdim edilməsi 2 formada həyata keçirilə bilər: sadə və əsaslandırılmış. Sadə formada təqdim edilən nəticə mütəxəssis tərəfindən ətraflı analiz edilmədən tam mətnin antiplagiat proqramına daxil edilməsilə yalnız alınan orijinallıq faiz göstəricilərini özündə əks etdirir (Şəkil 2):

**Azərbaycan Milli Elmlər Akademiyası**
**İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU**

**Plagiatlığın yoxlanılmasına dair**
**A R A Y I Ş**

AMEA İnformasiya Texnologiyaları İnstitutunun fəlsəfə doktoru proqramı üzrə dissertantı **Qasımov Hüseyn Ələkbər oğlunun "Azərbaycanda bimodal elektron universitetin intellektual idarə olunması üçün model və metodların işlənməsi"** adlı dissertasiya işi "AntiPlagiarism.NET" antiplagiat proqramı vasitəsi ilə yoxlanılmışdır, işdə plagiatlıq aşkar edilməmişdir. Aparılan yoxlama zamanı bölmələr üzrə aşağıdakı nəticələr əldə edilmişdir:

**Giriş** – unikallıq 76% (özünə istinadı çıxdıqda 91%)
**Fəsil 1.** – unikallıq 68% (özünə istinadı çıxdıqda 90%)
**Fəsil 2.** – unikallıq 91%
**Fəsil 3.** – unikallıq 86% (özünə istinadı çıxdıqda 91%)
**Fəsil 4.** – unikallıq 90% (özünə istinadı çıxdıqda 95%)
**Nəticə** – unikallıq 51% (özünə istinadı çıxdıqda 100%)

**AMEA İnformasiya Texnologiyaları İnstitutunun**
**Antiplagiat və DOI xidmətləri sektoru,**
**məsul şəxs** **Firudin Əsgərov**

**Şəkil 2. Nəticələrin sadə şəkildə müəllifə təqdim edilməsi**

Əsaslandırılmış nəticənin təqdimatında bir neçə məqam sadalanır: Tam mətn, hissələr, ədəbiyyat, obyektlər və axtarış sistemləri. Əsaslandırılmış nəticədə müəllifə həmçinin sadə şəkildə nəzərdə tutulan nəticə də faiz göstəriciləri ilə birgə təqdim edilir. Burada mətnin ayrı-ayrı hissələrinin antiplagiat proqramından yoxlanılaraq əldə edilmiş orijinallıq və plagiatlıq faiz göstəriciləri də əks olunur. Müəllifin elmi işin Ədəbiyyat:nda qeyd olunan mənbələrdən hansı şəkildə istifadə etdiyi (məsələn, ideyanın, mətnin və s. olduğu kimi köçürülməsi) antiplagiat proqramı tərəfindən müəyyənləşdirilir və uyğun göstəricilər qeyd olunur. Mətndən ayrılmış obyektlərin hər biri antiplagiat sistemi vasitəsilə axtarış sistemlərində oxşar şəkillərlə müqayisə olunur və rast gəlinən eyniliklər nəticədə əks etdirilir (Şəkil 3):

**Firudin Əsgərov, Rəhilə Həsənova tərəfindən təqdim edilmiş "Elektron kitabxanalarda fərdi məlumatların təhlükəsizlik məsələləri" adlı tezisin plagiatlığının yoxlanılması nəticəsi haqqında**

**ARAYIŞ**

**Dərin yoxlama**

- Mətnin axtarış aparıldığı sistemlərin adları: Google, Yandex, Rambler, Bing və Yahoo.
- "Şinql" uzunluğu: 3 söz
- Plagiat kimi aşkarlanmış, lakin müəllifin özünəməxsus resurslarının faiz göstəricisi (bir-bir araşdırılıb deaktiv edilib): 6%
- Plagiat kimi aşkarlanmış, lakin xüsusi adların faiz göstəricisi (bir-bir araşdırılıb deaktiv edilib): 8%
- Unikallıq üçün sərhəd qiymət: 50%
- Unikallığın faiz göstəricisi (istisnasız): 66%
- Unikallığın faiz göstəricisi (1% və 2% baxılmır, 3, 4, 5%-dən yuxarı olanlara baxılır): 80%
  - ✓ Burada həmçinin "İnformasiya Texnologiyaları İnstitutu" kimi xüsusi adlar və özünə istinadlar da deaktiv edilmişdir.
- Xüsusi adların plagiat olması, özünə istinadın isə plagiat olmaması nəzərə alındıqda unikallığın faiz göstəricisi (1% və 2% baxılmır): 72%
- Özünə istinadın plagiat olması, xüsusi adların plagiat olmaması nəzərə alındıqda unikallığın faiz göstəricisi (1% və 2% baxılmır): 74%
- Mütəxəssis tərəfindən ədəbiyyat siyahısı araşdırılmışdır. Tam mətnli köçürülmə aşkarlanmamışdır.
- Tarix etibarilə özündən əvvəlki materiallarla heç bir konflikt aşkar edilməmişdir.

**AMEA İnformasiya Texnologiyaları İnstitutu**
**Antiplagiat və DOI xidmətləri sektoru**

**Şəkil 3. Nəticələrin əsaslandırılmış şəkildə müəllifə təqdim edilməsi**

Hər bir antiplagiat sistemi plagiatlığı həm onlayn olaraq İnternet üzərindən, həm də özünün lokal bazasında olan sənədlərin arasından axtarır. Belə ki, ölkədə antiplagiat xidməti göstərən sistemlərin ölkədə nəşr olunan bütün elmi əsərlərin elektron məzmununu özündə əks etdirən verilənlər bazasına (məsələn, Elmi İstinad İndeksinə) əlyetərliyi təmin olunmalıdır. Bu baxımdan ölkədə vahid antiplagiat xidmətinin yaradılması üçün ən vacib məqam milli elektron kontentin yaradılmasıdır [4,5]. Müasir dövrdə Azərbaycan dilində milli kontentin hazırlanması aktual mövzulardandır. 200-dən çox elmi jurnalın çox az bir hissəsinin veb saytı mövcuddur və onlayn versiyası mövcud olan jurnalların saytları beynəlxalq standartlara cavab vermir. Belə ki, bütün nəşr edilmiş məqalələrin kontentinə əlyetərlik təmin edilməli, mövcud antiplagiat sisteminin bu baza üzərindən yoxlama aparması mümkün olmalıdır. Doğrudur, internet mühitində elmi əsərlərin mövcudluğu plagiatlıq faktlarının artmasına səbəb olur, lakin eyni zamanda antiplagiat proqramları tərəfindən asanlıqla aşkarlana da bilir.

Ümumilikdə antiplagiat proqramının iş prinsipi aşağıdakı şəkildə təsvir edilir (Şəkil 4):




**Şəkil 4. Antiplagiat sisteminin iş prinsipi**

Burada sorğuların cavablandırılması mərhələsi hesab nömrəsi ilə asanlıqla həll edilə bilir, bu isə öz növbəsində yoxlama prosesini daha da sürətləndirilməsinə səbəb olur.

Mövcud antiplagiat sistemlərində çoxdillilik prinsipləri gözlənilsə də, hələ ki, dilin bütün xüsusiyyətlərini nəzərə alan universal antiplagiat sistemləri istehsal edilməmişdir. Bu məqsədlə milli antiplagiat xidmətində Azərbaycan dili üçün nəzərə alınması əhəmiyyətli hesab olunan xüsusiyyətlər aşağıdakılardır:

✓ Antiplagiat sistemlərində yalnız mətnləri deyil, qrafik obyektləri (sxem, qrafik, cədvəl, diaqram, şəkil və s.) də yoxlamaq vacibdir.

✓ Böyük həcmli mətnlərin avtomatik avtoreferatının çıxarılması üsulundan istifadə edərək yoxlanılmasını həyata keçirmək olar.

✓ Latın və kiril əlifbalarına uyğun mümkün variasiyaların yoxlanması, məsələn latın “a” və kiril “a” hərflərini yenidən dəyişərək yoxlama aparmaq və s. ASCII və Unicode əks kodlaşdırmasında mətni yenidən yoxlamaq olar.

✓ Xüsusi ekspertlər tərəfindən antiplagiat sistemində aşkarlanmış plagiatlıq mütləq şəkildə tarixə görə təhlil edilməlidir. Belə ki, bəzən internet mühitində tapılmış plagiatlıq, əslində əksinə plagiatlıq hesab edilir. Çünki yoxlanılan mətn əslində orijinal, yəni həmin mətndən tarix etibarilə öncədən yazılmış olur.

✓ Ekspertlər həmçinin Ədəbiyyat:nda verilmiş mənbələrin yalnız adları ilə deyil həmin mənbələrin mətnini tapıb müqayisə etməklə dərin yoxlamanı həyata keçirə bilərlər.

**Ədəbiyyat:**


1. Əliquliyev R., Ağayev N., Alıquliyev R. Plagiatlıqla mübarizə texnologiyaları, Bakı: İnformasiya Texnologiyaları nəşriyyatı, 2015, 165 s.
2. Həsənova R., Əsgərov F. Plagiatlığın növləri və ondan qorunmağın üsulları // “İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri” IV respublika konfransı, 14 dekabr, 2018, s.221-223.
3. Əliquliyev R.M., Alıquliyev R.M., Mahmudov R.Ş. Azərbaycanda plagiatliqla mübarizə problemləri və həll yolları // İnformasiya cəmiyyəti problemləri, 2019, №1, 34-43.
4. Həsənova R.Ş., Əsgərov F.Ş. Plagiatlıq və onunla mübarizə vasitələri: antiplagiat sistemləri // İnformasiya cəmiyyəti problemləri, 2019, №2, 94-101.
5. Hasanova R.Sh., Asgarov F.Sh. Conception of creating the national anti-plagiarism service in Azerbaijan // İnformasiya cəmiyyəti problemləri, 2021, №1, 88-93.

6. How Do I Know If I'm Plagiarizing? https://www.scribendi.com/advice/how_do_i_know_if_im_plagiarizing.en.html
7. Education with Integrity, www.turnitin.com
8. What is Plagiarism?, 2017, www.plagiarism.org
9. Asim M., Hussam M., Snasel V. Overview and Comparison of Plagiarism Detection Tools, Dateso 2011, pp. 161-172.

***Аннотация:*** *В статье рассматриваются пояснения к таким терминам как плагиат, пиратство, нарушение авторских прав и др. Перечислены виды плагиата, а также принципы работы систем антиплагиата, которое является одним из способов борьбы с плагиатом. В примере Института Информационных Технологий НАНА описывается этапы работы национальной службы по борьбе с плагиатом и то, как должно представлятся их результаты.*

***Ключевые слова:*** *плагиат, пиратство, система антиплагиата, нарушение авторских прав, Turnitin, Plagiarism, Research Resources.*

***Abstract:*** *The article considers explanations of such terms as plagiarism, piracy, violation of copyright and etc. The types of plagiarism are listed, as well as the working principles of anti-plagiarism systems, which is one of the ways to fight plagiarism. In the example of the Institute of Information Technology of ANAS describes the stages of the work of the national antiplagiarism service and how the results should be presented.*

***Keywords:*** *plagiarism, piracy, plagiarism checker systems, copyright violation, Turnitin, Plagiarism, Research Resources.*